**BİKƏXANIM QURBANOVA**
**Bakı Avrasiya Universiteti**
**Akademik H.Əliyev küçəsi 135A**
**qurbanovabike1@gmail.com**

# AZƏRBAYCANDA MULTIKULTURALİZM VƏ DIL SİYASƏTİ

**Xülasə**

Multikulturalizmin mədəniyyətləri bir araya gətirir.Multikulturalizm adət-ənənələr arasında mədəniyyəti və tolerantlığı formalaşdırır. Dini tolerantlıq- bir dini konfessiyaya mənsub olan din məmurunun başqa dinə mənsub olan din adamlarının düşüncələrinə hörmətlə yanaşmasıdır. Millətlərarası tolerantlıq-başqa milli, etnik və irqi ənənələrə hörmət şəklində ifadə olunur.Tolerant insan hər hansı xalqa və onun hər bir nümayəndəsinə hörmət və məhəbbətlə yanaşan insandır.

Multikulturalizm dedikdə dövlətin sərhədləri içərisində çoxmədəniyyətliliyi qorumaqdır. Həmçinin Azərbaycanda yaşayan milli azlıqlar üçün də maksimum yaradılmışdır. Ölkəmizdə yaşayan azsaylı xalqların dillərinin ümumtəhsil məktəblərində tədrisi ilə bağlı son illərdə talış,saxur,-kürd,tat,udin,xınalıq dilləri üzrə ibtidai siniflər üçün dərs proqramları hazırlanmışdır.Bakı Slavyan Universitetinin nəzdində Ukrayna dili öyrədilən Bazar günü məktəbi,Qafqaz xalqlarının dilləri və mədəniyyəti cəmiyyəti fəaliyyət göstərmişdir.Azərbaycan dövlət olaraq həmişə bütün məsələləri tolerantlıq prinsipləri çərçivəsində həll etməyə çalışır. Mərkəzin yaradılmasında əsas məqsəd, ölkədə əsrlərlə formalaşmış tolerantlığı davam etdirmək, etnik-mədəni və dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etməkdir. Multikulturalizm mərkəzi dünyada bir çox millətlər tərəfindən tanınır(4). Multikulturalizmin tətbiq edildiyi dil siyasəti modeli demokratik dil siyasəti modelidir.Müstəqil Azərbaycan dövləti və onun yaradıcısı Ulu Öndər Heydər Əliyev və İlham Əliyev ölkəmizdə yaşayan milli azlıqların dilinə,dininə,mədəniyyətlərinə həmişə diqqətlə və hörmətlə yanaşmışdır.

**Açar sözlər:**multikulturalizm,tolerantlıq,milli azlıq,mədəniyyət,cəmiyyət,hüquq.

Azərbaycan müxtəlif mədəniyyətlərin,dinlərin,adət-ənənələrin bir araya gəldiyi multikulturalizm ölkəsidir.Azərbaycan müxtəlif mədəniyyətlərin,xalqların bir araya gəldiyi məkan olaraq,sülh,əmin-amanlıq ölkəsi kimi tanınmışdır.Multikulturalizm mədəniyyətlərin, sivilizasiyaların dialoqunun əsas alətidir.Digər xalqların mədəniyyətlərinin,xüsusiyyətlərini tarixini öyrənmədən onların nümayəndələri ilə qarşılıqlı şəkildə anlaşma qeyri-mümkündür.(5) Hərfi mənada "multikulturalizm" çoxmədəniyyətlilik deməkdir. Latın dilindən tərcümədə "multi" çox mənasını verir,"kultura" isə tərbiyə,təhsil,din,elm,din,davranış,etiket və s.anlayışlarla ifadə olunur. Hindistan konstitusiyasında cəmiyyətin polietnik olması, müstəqillik ərəfəsində müsəlmanlarla hinduslar arasında ölkənin parçalanması ilə nəticələnən etnik-siyasi hadisələrlə bağlı "multimədəni cəmiyyət" prinsipləri meydana gəlmişdir.Avropa və bəzi ölkələr multikulturalizmi idarə etməyin çox çətin vəzifə olmasını nəzərə alıb,imtina etmişlər.Azərbaycan islam ölkəsidir və biz öz dinimizə hörmətlə,etiqadla yanaşırıq. Multikulturalizmin əsas elementlərindən biri də tolerantlıqdır.-Azərbaycan dövlət olaraq həmişə bütün məsələləri tolerantlıq prinsipləri çərçivəsində həll etməyə çalışır. ."Tolerantlıq" fransız dilindən tərcümədə "dözümlü" deməkdir.Tolerantlıq insanın həyat tərzinə,davranışına,adət-ənənələrinə dözümlə yanaşmaq deməkdir.Tolerantlıq ümumi dəyərlərə qarşı çıxılmaması şərti ilə insanlara öz yaşayış tərzlərinə,düşüncələrinə uyğun yaşamaq haqqı verir.Tolerantlılığın müxtəlif tipləri vardır: **1) Dini tolerantlıq**- bir dini konfessiyaya mənsub olan din məmurunun başqa dinə mənsub olan din adamlarının düşüncələrinə hörmətlə yanaşmasıdır.(1,səh 24)/ **2) Pedaqoji tolerantlıq**- pedaqoqun şagirdlərə və tələbələrə səmimi münasibəti, eləcə də onların hüquq və azadlıqlarına, yaradıcı və tənqidi düşüncələrinə yüksək dözümlü münasibət və hörmətidir.

**3) Ekoloji tolerantıq-**bütün həyat formalarına səmimi hörmətdə və məhəbbətdə təzahür edir. Hər hansı varlığın təbii qanunauyğunluğun nəticəsi olmasını və onların hər birinin həyat zəncirində xüsusi və vacib rolu olmasını dərk etmək kimi ali prinsiplərə əsaslanır.(1,səh 24)

**4) Millətlərarası tolerantlıq-**başqa milli, etnik və irqi ənənələrə hörmət şəklində ifadə olunur. Bu baxımdan tolerant insan hər hansı xalqa və onun hər bir nümayəndəsinə hörmət və məhəbbətlə yanaşan insandır.

**5)Siyasi tolerantlıq-**siyasi baxışlara və siyasi əksliklərə hörmət və dözümlülük deməkdir.

**6)Fizioloji tolerantıq-**sağlamlıq problemləri olan insanlara məhəbbət, dözümlülük,mərhəmətdir.

**7) Cinsi tolerantlıq-**əks cinsin bütün nümayəndələrinə, eləcə də cinsi azlıqların mənsublarına münasibətdə dözümlülük şəklində təzahür edir.

**8) Administrativ tolerantlıq-** aşağı və yüksək rütbəli vəzifəli şəxslərə,məmurlara dözümlülük,-mərhəmət,hörmət deməkdir.Tolerantlığın hər bir tipinin özünəməxsus istiqaməti var və hər bir tolerant insan bu istiqamətlərin hər birinə dözümlülüklə yanaşmalıdır. Prezident İlham Əliyevin multikulturalizm siyasətinin daha effektli şəkildə həyata keçirilməsini təmin etmək istiqamətində atdığı növbəti addım, onun 2015-ci ilin 15 may tarixində imzaladığı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında sənəd oldu. Mərkəzin yaradılmasında əsas məqsəd, ölkədə əsrlərlə formalaşmış tolerantlığın, etnik-mədəni və dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, həmçinin Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək idi.(1,səh 36) Bu gün multimədəni dəyərləri tərənnüm edən Azərbaycan xalqının sıx və sarsılmaz birliyinin təmin edilməsi işində möhtəşəm tədbirlərin təşkili və həyata keçirilməsi kimi proses uğurla davam edir. Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən davamlı multimədəni siyasətin ən başlıca əhəmiyyəti isə ondan ibarətdir ki, geniş və kompleks şəkildə həyata keçirilən mütərəqqi ideyaların külliyyatı Azərbaycan xalqının həyatında çoxəsrlik əxlaqi mədəni və mənəvi dəyərlərin intibahı kimi təzahür etdi və xalqın əsrlərlə formalaşmış, lakin müəyyən obyektiv tarixi səbəblərdən deformasiyaya məruz qalmış əsl tolerant obrazını və müdrik simasını özünə qaytardı. Prezident İlham Əliyevin etnik tolerantlığa, yeni multikulturalizm ideyalarına verdiyi mədəni-siyasi dəyərlərin dünya miqyasında real elmi, mədəni və sosial müstəvilərə çıxarılması işində Heydər Əliyev Fondunun və fondun prezidenti, ölkənin birinci xanımı, Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri vardır. Multikulturalizm ideyalarının təbliği və təşviqi ilə bağlı baş tutan bütün yerli, regional və beynəlxalq miqyaslı və xarakterli tədbirlər Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi strukturların təşkilatçılığı və iştirakı ilə reallaşdırılır. Multikultural mühitin tətbiq edildiyi dil siyasəti modeli demokratik dil siyasəti modelidir.Azərbaycanda çoxlu azsaylı xalqlar və etnik qruplar yaşayır.Müstəqil Azərbaycan dövləti və onun yaradıcısı Ulu Öndər Heydər Əliyev ölkəmizdə yaşayan milli azlıqların dilinə,dininə,mədəniyyətlərinə həmişə diqqətlə və hörmətlə yanaşmışdır(2,səh 10).Respublikada yaşayan etnik qrupların demək olar ki,əksəriyyəti Azərbaycanın dövlət dillini bilir,bu dildən etniklərarası ünsiyyət vasitəsi kimi də istifadə olunur. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Təhsil haqqında" Qanunun 5-ci maddəsinin ,5.1.- ci bəndinə əsasən, "Dövlət hər bir vətəndaşın təhsil' alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir"; 5.2.-ci bəndində isə göstərilir ki, "Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir". "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalqların və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1992- ci il tarixli, 212 saylı Fərmanına uyğun olaraq, ümumtəhsil məktəblərində onların dillərinin tədrisi ilə bağlı lazımi şərait yaradılmışdır. Ölkəmizin ümumtəhsil məktəblərində təlim Azərbaycan, rus, gürcü dillərində aparılır. Buna müvafiq olaraq, təlim 3 dildə olan məktəblər üçün tədris planları təsdiq edilmişdir. Respublikanın təhsil sistemində fəaliyyət göstərən 1.764 məktəbəqədər təhsil müəssisələrindən 248-də 8.347 şagird rus dilində, 7-də isə 300-dən çox uşaq gürcü dilində təhsil

alır. Eyni zamanda, milli azlıqların (avar, kürd, udin, saxur, ivrit, xınalıq və s.) dili ana dili kimi öyrədilən məktəblərin I-IV sinifləri üçün tədris planlarında həmin dillərin tədrisi üçün həftədə 2 saat dərs yükü ayrılmışdır. Ləzgi dili isə həftədə 2 saat olmaqla Qusar rayonunda I-XI, İsmayıllı, Qəbələ, Xaçmaz, Oğuz rayonlarında I-IX, Quba rayonunda isə I-IV siniflərdə tədris olunur. Respublikanın 13 rayonunda (Lənkəran, Astara, Balakən, Oğuz, Quba, Qusar, Qəbələ, Zaqatala, İsmayıllı, Lerik, Masallı, Samux, və Xaçmaz) yaşayan milli azlıqların uşaqlarının öz ana dilini, milli adət və ənənələrini, mədəniyyətini öyrənmələri üçün müvafiq şərait yaradılmışdır. Ölkəmizdə yaşayan azsaylı xalqların dillərinin ümumtəhsil məktəblərində tədrisi ilə bağlı son illərdə talış,saxur,kürd,tat,udin,xınalıq dilləri üzrə ibtidai siniflər üçün dərs proqramları hazırlanmışdır.Bu tip qanunlar nəinki bölgələrdə, hətta Bakıdada tətbiq olunmuşdu.Belə ki Bakı Slavyan Universitetinin nəzdində Ukrayna dili öyrədilən Bazar günü məktəbi,Qafqaz xalqlarının dilləri və mədəniyyəti cəmiyyəti fəaliyyət göstərmişdir.Bakının 46 nömrəli məktəbində 10 ilə yaxındır ki,yəhudi dili tədris olunur(3,səh 100).Avropa Şurası və Təhsil Nazirliyi 2003-cü ildən "Təhsil siyasəti və milli azlıqlar" layihəsini birgə keçirir.Layihənin əsas məqsədi iştirakçı ölkələrə milli azlıqların təhsili ilə bağlı qanunvericilik sənədlərinin hazırlanmasında yardım göstərilməsi və milli azlıqların təhsil siyasəti sahəsində tövsiyələrin təqdim edilməsidir.Bu layihənin səmərəli həyata keçirilməsi məqsədilə Azərbaycan-Avropa Şurası birgə İşçi Qrupu yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən davamlı multimədəni siyasətin ən başlıca əhəmiyyəti isə ondan ibarətdir ki, geniş və kompleks şəkildə həyata keçirilən mütərəqqi ideyaların külliyyatı Azərbaycan xalqının həyatında çoxəsrlik əxlaqimədəni və mənəvi dəyərlərin intibahı kimi təzahür etdi və xalqın əsrlərlə formalaşmış, lakin müəyyən obyektiv tarixi səbəblərdən deformasiyaya məruz qalmış əsl tolerant obrazını və müdrik simasını özünə qaytardı. Prezident İlham Əliyevin etnik tolerantlığa, yeni multikulturalizm ideyalarına verdiyi mədəni-siyasi dəyərlərin dünya miqyasında real elmi, mədəni və sosial müstəvilərə çıxarılması işində Heydər Əliyev Fondunun və fondun prezidenti, ölkənin birinci xanımı, Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri vardır. Multikulturalizm ideyalarının təbliği və təşviqi ilə bağlı baş tutan bütün yerli, regional və beynəlxalq miqyaslı və xarakterli tədbirlər Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi strukturların təşkilatçılığı və iştirakı ilə reallaşdırılır. 2016-cı ildə "Multikulturalizm ili"ilə əlaqədar ölkəmizdə dəyirmi masalar,sərgilər,müsabiqələr,yay-qış multikulturalizm düşərgələrinin yaradılması,"Azərbaycan multikulturalizmi" kitabının hazırlanması,ölkədə multikultural dəyərlərin inkişafından xəbər verir.Multikultural düşərgələrin yaradılması,həm ölkəmiz üçün,həm də bir çox ölkələr üçün çox gözəl hadisədir.Prezidentimizin fərmanı ilə hər il ildə iki dəfə xarici tələbələr multikultural məktəblərə dəvət olunurlar.Bu məktəblərin nəzdnində düşərgələr təşkil olunur,bu düşərgələrə Azərbaycanın müxtəlif bölgələrindən gənclər gəlir,dinindən,irqindən,milliyyətindən asılı olmayaraq gənclərin bir arada olması,dostluq münasibətləriinin qurulması bizim üçün çox sevindiricidir. Nəticə olaraq qeyd edə bilərik ki,Multikulturalizmlə bağlı atılan addımlar Azərbaycanı daha da inkişaf etdirmişdir.Azərbaycanda milli azlıqlar üçün kifayət qədər şərait yaradılıb və hal-hazırda da yaradılır.Biz inanırıq ki, yaxın gələcəkdə müstəqil Azərbaycan inkişaf etdikcə milli azlıqların və etnik qrupların daha da rahat şəraitdə yaşamaları üçün hər cür şərait yaradılacaqdır.

İstifadə olunmuş ədəbiyyat:


1. Azərbaycan Respublikası Təhsil Nazirliyi.Mingəçevir Dövlət Universiteti Multikulturalizmə giriş Bakı Mürtəcim 2018

2.Mədəniyyət və turizm nazirliyi,Azərbaycan Milli Kitabxanası-Azərbaycanda Multikulturalizm Bakı 2016/503 səh.

3.Niyaz Niftiyev-Azərbaycanda Birgəyaşayış və Multikulturalizm./Bakı 2015/407 səh

İnternet qaynaqları:

4.https://www.google.com/search?q=www.preslib.az+multikulturalizm&oq=www.preslib.az
5. Wikipedia.org

**Б.Курбанова**

**Мультикультурализм, толерантность и языковая политика в Азербайджане**

**Резюме**

Мультикультурализм объединяет культуры, мультикультурализм формирует культуру и терпимость между традициями. Религиозная терпимость - религиозный член священства, который уважает религиозные убеждения, принадлежащие к другой религии. Международная терпимость выражается в отношении других национальных, этнических и расовых традиций.Толерантный - это человек, который уважает и уважает каждого человека и каждого человека. Мультикультурализм заключается в защите мультикультурализма в границах государства. Он также был создан для национальных меньшинств, проживающих в Азербайджане. В последние годы в связи с преподаванием языков меньшинств в Азербайджане были разработаны учебные программы для начальных школ на талышском, сахурском, курдском, татском, удинском, ксинасском языках. Одним из основных элементов мультикультурализма является толерантность:

Азербайджан как государство всегда стремится решать все вопросы в рамках толерантности. Основной целью центра является сохранение толерантности в стране на протяжении веков, обеспечение сохранения и процветания этнического, культурного и религиозного разнообразия. Мультикультурализм признан многими народами по всему миру.

Модель языковой политики, осуществляемая мультикультурализмом, является моделью демократической языковой политики: независимое Азербайджанское государство и его создатели, великий лидер Гейдар Алиев и Ильхам Алиев всегда были внимательны и уважительно относятся к языку, религии и культуре национальных меньшинств, проживающих в нашей стране.

**Ключевие слова:** мультикультурализм,толерантность, национальное меньшинство,культура,общество,закон

**B.Gurbanova**

**Multiculturalism, Tolerance and Language Policy in Azerbaijan**

**Summary**

Multiculturalism brings together cultures. Multiculturalism shapes culture and tolerance among traditions. Religious tolerance - a religious priesthood member who respects religious beliefs belonging to another religion. International tolerance is expressed in the respect of other national, ethnic and racial traditions.

Tolerant is a human being who respects and respects every individual and every individual. Multiculturalism is to protect multiculturalism within the borders of the state. It has also been created for the national minorities living in Azerbaijan. In recent years, training programs for primary schools in Talysh, Sakhur, Kurdi, Tat, Udin, Xinasi languages have been developed in

connection with the teaching of minority languages in Azerbaijan. One of the main elements of multiculturalism is tolerance. Azerbaijan as a state always seeks to solve all issues within the framework of tolerance. The main goal of the center is to maintain tolerance in the country for centuries, to ensure the preservation and prosperity of ethnic, cultural and religious diversity. Multiculturalism is recognized by many nations around the world.

The model of language policy implemented by multiculturalism is a model of democratic language policy. The independent Azerbaijan state and its creator, Great Leader Heydar Aliyev and Ilham Aliyev have always been attentive and respectful to the language, religion and culture of national minorities living in our country.

**Keywords:**multiculturalism,tolerance,national minority,culture,society,law

Redaksiyaya daxil olma tarixi: 04.04.2019
Çapa qəbul olunma tarixi: 22.04.2019
Filologiya elmləri doktoru, Mayıl Əsgərov tərəfindən çapa tövsiyə olunmuşdur.